Tapşırıq 3. Şərtli zəngin ədədlər

Mariya **zəngin** ədədi aşağıdakı kimi təyin edir. X müsbət tam ədədi verilir. Bu zaman N müsbət ədədi o halda **zəngin** ədəd (X-ə nəzərən) sayılır ki, onun N-dən başqa digər bölənlərinin cəmi X-dən böyük olsun. Məsələn, 10 ədədi (bölənlərinin cəmi $1 + 2 + 5 = 8$) $X = 7$-yə nəzərən **zəngin** ədəddir, lakin $X = 12$-yə nəzərən zəngin deyil.

Tapşırıq

Mariyaya kömək etmək üçün `rich_num` proqramı yazın. Proqrama (L, R, V) müsbət tam ədədlər üçlüsündən ibarət sorğular veriləcək və proqram hər bir sorğu üçün L-dən böyük bərabər və R-dən kiçik bərabər, V-yə nəzərən **zəngin** olan ədədlərin sayını tapmalıdır.

Giriş verilənləri

Standart girişin birinci sətrində bir müsbət tam ədəd, Q – sorğuların sayı verilir.
Növbəti Q sətrin hər birində üç müsbət tam ədəd, L, R və V – sorğular verilir.

Çıxış verilənləri

Proqramınız standart çıxışa Q sayda sətir – giriş sırasına uyğun olaraq hər sorğu üçün bir sətir verməlidir. Hər bir sətirdə müvafiq sorğunun cavabı olmalıdır.

Məhdudiyyətlər

$1 \le Q \le 10^5$
$1 \le L \le R \le 10^5$
$1 \le V \le 10^5$

Alt tapşırıqlar

Alt tapşırıq	Bal	Q	R	V	Digər məhdudiyyətlər
1	5	$\le 10^3$	$\le 10^3$	$\le 10^5$	Yoxdur
2	10	$\le 10^5$	$\le 10^4$	$= 10$	$L = 1$
3	30	$\le 10^5$	$\le 10^5$	≤ 10	Yoxdur
4	55	$\le 10^5$	$\le 10^5$	$\le 10^5$	Yoxdur

Alt tapşırığın balı həmin alt tapşırığın bütün testləri keçdiyi halda verilir.

Nümunə

Giriş	Çıxış
3 5 15 5 1 20 20 12 20 10	6 2 4